*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 359-370*
https://doi.org/10.62837/2024.9.359

**İBRAHİMLİ SƏBİNƏ GÜLÇIN QIZI**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əyani doktorantı filologiya üzrə fəlsəfə doktoru***

# MƏMMƏD SƏİD ORDUBADİNİN MƏHBƏS HƏYATI

**Açar sözlər:** satirik jurnal, ədəbiyyat, ədib, "Hümmət" qəzeti, soyqırım, sürgün, sovetlər dönəmi.

## XÜLASƏ

Azərbaycan Çar Rusiyası tərəfindən işğal olandan sonra, xanlıqlar süqut etdi, Azərbaycanın bütün bölgələrinə soxulmuş çar məmurları quldarlıq, köləlik rejimini Azərbaycanda tətbiq etməyə başladı və təkcə kəndliləri, fəhlələri kölə halına salmadı, torpaq sahiblərini də özlərindən asılı vəziyyətə saldı. Belə ki, guya torpaq və yaxud mal-mülk sahibi olan sahibkarlar, kəndliləri, fəhlələri işlədərək, əldə etdikləri mənfəətin əksər hissəsini vergi adıyla məmurlara ödəyirdi. Bu isə öz növbəsində vaxtilə xan, bəy olan insanlar belə müflisləşmək həddinə gətirdi və onlar çar rejimindən o qədər asılı vəziyyətə düşdülər ki, artıq onların ağalığından heç bir söhbət gedə bilməzdi. Sosializam dönəmi zamanı elə tarixlər uydurulurdu ki, guya rus çarı Qafqazda, o cümlədən Azərbaycanda quldarlıq rejimini yalnız kəndlilər, fəhlələrə aid etmiş, bəylər, ağalar, bir sözlər zəngin adamlar isə öz ağalıq hüqunu saxlamışdılar. Lakin bu tamamilə belə deyildi, çünki Azərbaycanda bəylərin, ağaların, tacirlərin və başqa zəngin insanların da heç bir huququ yox idi. Çar çinovnikləri istədikləri zaman onların malını-mülkünü əlindən alır, istədikləri vaxt onları sürgün elətdirirdilər. Qafqaz canişini Varontsov-Daşkov, Azərbaycanda çoxlu zəngin insanların torpaqlarını, meşələrini, bağ-bağatlarını əllərindən aldırıb öz malı-mülkü eləmişdi. Bu tamahkar adamın hətta Bakıya gələrək Balaxanıdakı bir sıra neft mədənlərini zorla ələ keçirdiyi də tarixdən məlumdur.

XIX əsrin birinci yarısından etibarən Azərbaycanda baş verən siyasi çarpışmalar, ərazilərimizin inzibati cəhətdən bölünməsi, XIX əsrin ikinci yarısında isə yuxarıda qeyd olunduğu kimi çar Aleksandrın Rusiya iqtisadiyyatının həddindən artıq zəiflədiyini görüb məcburən "torpaq mülkiyyəti" (sahibkarlara pulla torpaqların satılması) qanununu imzaladıqdan sonra bazar iqtisadiyyatının inkişafı, iqtisadiyyat və mədəniyyət sahəsində özünü göstərdi, Azərbaycan ədəbiyyatında yeniliklər yarandı, tərəqqi hər cəhətdən öz qapılarını Azərbaycan mədəniyyətinin və ədəbiyyatının üzünə açdı və XX əsrin əvvəllərində uzun illərin təzyiq mühiti, sarsıntılar epoxasından sonra birdən-birə kəskin dəyişmələr, gözlənilməz dözümlər dövrünün ağuşuna düşmüş milli həyatın ilkin çarpışmaları, buxovsuz azadlıq eşqi, çaxnaşmalar, inqilablar zamanına müqabil vərdişsiz mübarizələr zamanı torpaq

bütün bu tarixləri qızıl səhifələrlə gələcək nəsillərə ötürməkdən ötrü tarixi səlnamələr yaradan dühalar yetişdirdi ki, onlardan biri də Məmməd Səid Ordubadi idi.

Sovetlər dönəmində Ordubadini sadəcə bir roman, hekayə, dram əsərləri ustası, "Molla Nəsrəddin" və başqa məcmuələrdə felyetonlar, məqalələr yazan qüdrətli bir mühərrir kimi qələmə vermişdi. Lakin ədibin həyatı boyu gördüyü sıxıntılar, ağrı-acılar, zillətlər, məşəqqətlər, həbsxana həyatı gizlədilmiş, bununla da tarixi gerçəklər xalqa tamamilə bildirilməmişdi. Lakin zaman gəldi, haqq öz yerini tapdı, bir sıra tarixi həqiqətlər üzə çıxdı və biz bir sıra gərəkli insanlarımız kimi Məmməd Səid Ordubadinin də zaman-zaman hansı iztirablarla, əzab-əziyyətlərlə, sıxıntılarla üzləşdiyini, hansı təzyiqlər altında yaradıcılıqla məşğul olduğunun şahidi olduq. M.S.Ordubadi inanılmaz dərəcədə əziyyətlər bahasına Azərbaycan ədəbiyyatı və xalqı üçün mükəmməl şəkildə nizamlanmış, süzgəclərdən keçirilmiş ədəbi irs qoymuşdur. Fəqət bu əgər akademik İsa Həbibbəylinin təbiricə desək "Ədəbiyyat nəhəngi"nin yaradıcılığı və həyatı hələ öyrənilməli, öyrənilməli, yenə də öyrənilməlidir. Bu həm də Azərbaycanın tarixi baxımından çox vacib və gərəklidir. Ədiblə bağlı tarixə yeni baxış bir çox qaranlıqlara aydınlıq gətirəcək və hər şey olduğu kimi bəyan ediləcəkdir.

**Sabina Ibrahimli**

## SUMMARY

### Prison life of Mammad Said Ordubadi

**Keywords:** satirical magazine, literature, writer, the newspaper "Hummet", genocide, exile, Soviet period

The khanates collapsed after Azerbaijan was occupied by Tsarist Russia, Tsarist officials penetrated into every region of Azerbaijan and began to implement the regime of servitude and slavery in Azerbaijan, and not only enslaved the villagers and workers, but also made the landowners dependent on them. Therefore, entrepreneurs who owned land or property employed peasants and workers and paid most of their profits to officials in the name of taxes. This led even the people who were khans and beys to bankruptcy, and they became dependent on the tsarist regime, there could be no question of their lordship anymore.

During the period of socialism, such dates were invented that in the Caucasus, including Azerbaijan, the Russian Tsar applied the slavery regime only to the villagers and workers, while the lords, beys and rich people vindicated their mastery rights. This was not entirely the case, because the beys, lords, merchants and other rich people had no rights in Azerbaijan. The Tsar's officialdoms could confiscate their property whenever they wanted and send them into exile whenever they wanted. The viceroy of the Caucasus, Varontsov-Dashkov, confiscated and privatized the lands, forests, and gardens of many rich people in Azerbaijan. It is even known from

history that this rapacious man came to Baku and seized many oil fields in Balakhani under compulsion.

From the first half of the 19th century political conflicts in Azerbaijan, division of Azerbaijani lands took place, and during the second half of the 19th century after Tsar Alexander saw that the Russian economy was extremely weak and was forced to sign the "land ownership" (selling land to entrepreneurs for money) law, the development of the market economy also manifested itself in the field of economy and culture; innovations appeared in Azerbaijani literature, the progress opened its doors to Azerbaijani culture and literature from all quarters. At the beginning of the 20th century, after many years of pressurized environment and turmoil, during sudden sharp changes, the initial clashes of national life, love of freedom, upheavals and revolutions the earth has produced geniuses who have created historical chronicles to pass on all this history to future generations with golden pages. One of them was Mammad said Ordubadi. During the Soviet era, Ordubadi was introduced as a master of novels, short stories, dramas, as well as a powerful editor who wrote feuilletons and articles in "Molla Nasreddin" and other collections. However, the difficulties, pain, humiliation, hardships and prison life that the author experienced throughout his life were hidden, so the historical facts were not completely conveyed to the people. But the time has come, the truth has found its place, a number of historical truths were revealed and we witnessed the suffering, pain, and pressure that Mammad Said Ordubadi faced from time to time, and the pressures under which he attempted creativity. Mammad Said Ordubadi left an excellent literary heritage at the cost of sufferings. According to academic Isa Habibbeyli's thought, the creativity and life of the "A literary giant" still need to be researched, examined and re-examined. This is also very important and necessary from the point of view of the history of Azerbaijan. A new glance at literary history will clarify many uncertainties and enable everything to be declared as it is.

**Ибрагимли Сабина Гюльчин кызы**

## ТЮРЕМНАЯ ЖИЗНЬ МАМЕДА САИДА ОРДУБАДИ

**Ключевые слова**: сатирический журнал, литература, литература, газета «Хуммат», геноцид, ссылка, советский период.

## РЕЗЮМЕ

После того как Азербайджан был захвачен царской Россией, ханства распались, царские чиновники, проникшие во все регионы Азербайджана, начали применять в Азербайджане режим крепостничества и рабства и не только закабалили крестьян и рабочих, но и поставили помещиков в зависимость от их. Таким образом, предприниматели, которые якобы владели

землей или собственностью, нанимали крестьян и рабочих и выплачивали большую часть своей прибыли чиновникам во имя налогов. Это, в свою очередь, довело до банкротства людей, бывших когда-то ханами и беками, и они стали настолько зависимы от царской милости, что об их светлости уже не могло быть и речи.

В период социализма были сфабрикованы такие истории, что русский царь на Кавказе, в том числе и в Азербайджане, применял рабовладельческий режим только к крестьянам и рабочим, а господа, паны и богатые люди сохраняли свое право господства. Однако это было не совсем так, поскольку в Азербайджане не имели прав господа, паны, купцы и другие богатые люди. Царские чиновники отбирали у них имущество, когда хотели, и ссылали, когда хотели. Варонцов-Дашков, наместник Кавказа, отобрал у многих богатых людей Азербайджана земли, леса и сады и сделал их своей собственностью. Из истории известно, что этот жадный человек даже приехал в Бакью и силой захватил ряд нефтяных месторождений в Балаханах.

С первой половины XIX века происходили политические столкновения в Азербайджане, административное деление азербайджанских территорий, а со второй половины XIX века, как уже говорилось выше, царь Александр видел, что российская экономика крайне слаба. и вынужденный подписать закон о «землевладении» (продаже земли предпринимателям за деньги) рыночная экономика проявила себя в области развития, экономики и культуры, произошли новшества в азербайджанской литературе, прогресс открыл двери азербайджанской культуре. и литературы во всех отношениях, и в начале XX века, после многих лет гнетущей среды, эпохи потрясений, в национальной жизни вдруг наступил период внезапных резких перемен и неожиданных толерантностей во время начальных сражений, безудержной любви. Свободы, паники и непривычной борьбы со временем революций, земля породила гениев, создавших исторические анналы, чтобы передать все эти истории на золотых страницах будущим поколениям, одним из которых был Мамед Саид Ордубади. В советское время Ордубадина описывали как мастера романов, рассказов и драматических произведений, влиятельного редактора, писавшего фельетоны и статьи в «Молле Насреддине» и других сборниках. Однако тяготы, боли, унижения, лишения и тюремная жизнь, пережитые писателем в течение жизни, были скрыты, поэтому исторические факты не были раскрыты народу в полной мере. Однако пришло время, истина нашла свое место, открылся ряд исторических истин, и мы, как и ряд нужных нам людей, стали свидетелями страданий, страданий и давления, с которыми время от времени сталкивался Мамед Саид Ордубади, и под каким давлением он занялся творчеством. М.С. Ордубади ценой неимоверных страданий оставил азербайджанской литературе и народу прекрасно оформленное и отфильтрованное литературное наследие. Однако, по словам академика Исы

Габиббейли, творчество и жизнь «литературного гиганта» еще нужно изучать, изучать и еще раз изучать. Это также очень важно и необходимо с точки зрения истории Азербайджана. Новый взгляд на историю литературы прояснит многие неясности и все объявит так, как оно есть.

***

**Giriş:** Akademik İsa Həbibbəyli M.S.Ordubadini Azərbaycan ədəbiyyatının Tolstoyu adlandırır. Çünki Lev Nikolayeviç Tolstoy rus xalqı üçün hansı işi görmüşdüsə, M.S.Ordubadi də Azərbaycan xalqı üçün həmin işi görmüş, istər bədii, istər avtoqrafik, istər tarixi-etnoqrafik, istərsə də dövrü-mətbuatda çıxan məqalələrində, felyetonlarında Azərbaycan məişətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini əks etdirdim, eyni zamanda Azərbaycan xalqının bütün ağrı-acılarını, sevincini, kədərini, hansı təzyiqlərə, işgəncələrə, qətliamlara məruz qaldığının ətraflı şəkildə ümumi mənzərəsini yaratmışdır.

Xalqın öz soy-kökünü, yeddi arxa dönənini anlatmaq, milli şüurda dirçəliş, milli oyanış M.S.Ordubadinin yaradıcılığının böyük bir qolunu təşkil edirdi. Xalqın gözünün açılması, maariflənməsi, milli məfkurənin inkişafı, milli özünüdərk, münafiq, şarlatan mollaların saxtakarlığının üzə çıxması, çar məmurlarının riyakarlığının və zorakılığının ifşası Ordubadinin dəst-xəttində mühüm yerləri tuturdu. Azərbaycanda münafiq mollalar sanki qarşılarına məqsəd qoyaraq xalqın maariflənməsinə, savadlanmasına, təhsil görməsinə mane olmağa çalışmış, çox böyük günahlara qatılaraq İslam dini adından çıxış edib guya elm oxumağın İslamda haram sayıldığını, elmlə məşğul olanların cəhənnəmdə yanacaqlarını car çəkmişlər. Ali mədrəsə təhsili görmüş Ordubadinin İslam dinindən çox yaxşı xəbəri var idi və fırıldaqçı, din pərdəsi altında min hoqqadan çıxan şarlatanları dövri-mətbuatda, əsasən də Cəlil Məmmədquluzadə tərəfindən nəşr edilən "Molla Nəsrəddin" jurnalında müntəzəm olaraq tənqid atəşinə tuturdu.

Lakin ədibin mübarizəsi tək bununla bitmirdi. O, Azərbaycan xalqına qarşı daim haqsızlıqlar, zorakılıqlar, işgəncələr, hətta qaniçən daşnaklara qoşulub qətliyamlar törətmiş çar üsul-idarəsinə, onun yırtıcı xislətli məmurlarına etiraz səsini ucaldır, imkanı daxilində onlardan bu irqçiliyə, şovinizmə, ayrı-seçkiliyə son qoymağı tələb edirdi. Elə bu səbəbdən də çar məmurları tərəfindən həbsə alınmış ömrünün çiçək açan dövründə bir neçə il həbsxanada, sonra isə sürgündə olmuşdu.

## MƏMMƏD SƏİD ORDUBADİNİN MƏHBƏS HƏYATI

M.T.Sidqinin yeni üsullu məktəbində mükəmməl təhsil ala-ala Məmməd Səid ailə vəziyyətləri ağır olduğu üçün on dörd yaşından etibarən zavodda işləməyə başlamışdı. M.S.Ordubadi yeniyetməlik illərində Ordubaddakı mədrəsədə dini təhsil almış, bir neçə ilahiyyat elmlərinə yiyələnmiş, eyni zamanda müqəddəs "Qurani-Kərim"i təcvidlə oxumağı öyrənmişdir. Onu da deyək ki, bu mədrəsə Ordubaddakı

292 füsunkar memarlıq abidələrindən biridir və çox şükürlər olsun ki, sökülüb dağılmamış XVIII əsrin əvvəllərində əməlisaleh insanlar tərəfindən necə inşa edilibsə o cür də qalmışdır:

İnşa tarixi 1714-cü ilə, Səfəvi hökmdarı Şah sultan Hüseynin hakimiyyəti dövrünə aid olunan Ordubad mədrəsəsi isə zəmanəmizədək salamat vəziyyətdə gəlib çatmış yeganə klassik mədrəsə nümunəsidir. Mədrəsə orta əsrlərdə ölkəmizin ən mühüm mədəniyyət və təhsil müəssisələrindən biri olmuş, dövlət aparatının yüksək vəzifəli adamları tərəfindən himayə və idarə edilmişdir. Fəaliyyət göstərdiyi bütün dövrlərdə mədrəsə şəhərin sosial-iqtisadi həyatında əhəmiyyətli rol oynayıb. O, Naxçıvanda sovet hakimiyyəti qurulanadək fəaliyyət göstərib. Akademik Məşədixanım Nemətin yazdıqlarına görə, orta əsrlərdə Ordubad şəhərindən çıxmış və "Ordubadi" nisbəsi ilə tanınmış bir sıra görkəmli şəxsiyyətlər də bu mədrəsədə təhsil almışlar ki, onlardan biri də böyük yazıçı-publisist və ictimai xadim Məmməd Səid Ordubadi olub".(1.)

M.S.Ordubadi "Qanlı sənələr" tarixi-etnoqrafiq əsərində 1905-1906-cı illərdə baş verən erməni-müsəlman qırğınını bütün təfsilatı ilə açıb göstərmiş, bu qırğındakı səbəbkarların, günahkarların adlarını qeyd etmiş, eyni zamanda bu qırğından zərər çəkən şəhərləri, kəndləri, məkanları bircə-bircə göstərmiş, günahsız olduqları halda qətlə yetirilən insanların faciəvi taleyini ətraflı şəkildə təsvir etmişdir. Bütün bunlardan əlavə isə ədib qırğının təbii ki, erməni daşnaklar tərəfindən törədildiyini vurğulamış və quldur xislətli erməni daşnaklarının hansı iddəada olduqlarının səbəblərini izah etmişdir:

"1-ci səbəb erməni Daşnaksutyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı... 2-ci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. 3-cü səbəb və iğtişaşa gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya - idarə muxtariyyəti həvəsində olmalarıdır."(2.s.8)

1913-cü ildən başlayaraq vaxtilə Osmanlı ordusunda xidmət eləmiş, hətta "paşa" rütbəsi almış Andronik başına erməni qımçaklarından və daşnaklarından çoxsaylı dəstələr toplayaraq əvvəlcə Cənubi Azərbaycanda, sonra Anadolu köylərində qırğınlar törətmiş, 600-dən çox köyü insanları ilə birlikdə yandırıb yaxmış, daha sonra Naxçıvanda və Qərbi Azərbaycanda qətliamlar törədərək sayı məlum olmayan türk-müsəlmanı insanlığa sığmayan ən vəhşi üsullarla qətlə yetirmişdi. M.S.Ordubadi özünün "Həyatım və mühitim" avtobioqrafik romanında 1913-cü ildə Culfada Androniklə görüşündən yazır. Əlbəttə türk qanına susamış Androniklə, xüsusilə yanında yüzlərlə başkəsənləri olduğu halda görüşmək bir türk-azərbaycanlı üçün çox təhlükəli idi, lakin Məmməd Səid özündə cəsarət tapıb bu cəllad xislətli ermənininin törətdiyi qırğınların, qətliamların səbəbini öyrənməyə çalışmışdı:

"Sərnişin qatarının fiti eşidilən kimi birinci dərəcəli vaqon duran yerdən faytonların yanına qədər polis və jandarm tərəfindən əhatə edilmişdi. Kimsə buraxılmırdı. Mən yeni müsafiri görməyə tələsirdim. Müsafir vağzaldan çıxdı. Bu zat çıxmaz daşnaklar əski erməni padşahları vaxtının milli bayrağını qaldırdılar. "Yaşasın - yaşasın" səslərinə rus jandarm və zabitlərinin də səsləri qarışmışdı. Müsafir hərbi avtomobilinə oturub Abramovun evində hazırlanmış mənzilinə getdi.

Biz yarın bu məsələni müzakirəyə qoyduq. İclasda Şeyxov Nəsrulla, Baxşəli Ağa Şahtaxtlı, Ağa Məhəmməd Hüseyn, İsmayıl Bulqanlı və başqaları iştirak edirdilər. Müzakirədən sonra Andronik ilə görüşmək, ondan erməni-müsəlman ixtilafına yol verilməməsi üçün rica etmək, ermənilərlə müsəlmanları qandırmaq, daşnakların fitnələrinə soyuqqanlıqla baxmaq üçün müsəlmanları başa salmaq və sair kimi məsələlər qərara alındı.

Mühüm müsafir ilə müsahibə etmək üçün Haşım bəy Vəzirov mənə müxbirlik vəsiqəsi göndərmişdi. Mən həmən vəsiqə ilə Andranik ilə müsahibə üçün Abramovun mülkünə getdim. Qapının qabağında dərzi Karapet fəxri qaraulda durmuşdu. Bu daşnak dərzidən daşnaklar müxtəlif xidmətlərdə istifadə edirdilər". (3.s.42-43)

M.S.Ordubadi çox çətinliklə, eyni zamanda 99 faiz ölüm təhlükəsi ilə üz-üzə gəlib iiyirmi beş minlik təpədən-dırnağadək silahlanmış Cənubi Azərbaycan daşnak ordusu ilə Azərbaycanın Urmiya, Xoy, Səlmas bölgələrində 150 min, Anadolunun Qars, Ərdəhan, Ərzurum vilayətlərində 200 mindən artıq soydaşımızı insanlığa sığmayan vəhşi üsullarla qətlə yetirmiş Andronıklə görüşərək ondan müsahibə almış, ondan müharibənin alovlanmasının qarşısını almağı xahiş etmişdi. Anadolu türkcəsində təmiz danışan Andronik erməni xislətinə uyğun olaraq yenə yalan danışmış və guya bir daha qırğın törətməyəcəyini vəd etmişdi.

"Daşnaksutyun" partiyasının 1912-ci ildə təşkil etdiyi Erməni Milli Bürosu 1914-cü il imperialist müharibəsi zamanı ermənilərin Çar Rusiyası tərəfindən müharibəyə cəlb edilməsi üçün geniş kampaniya aparırdı.... "Milli Büro"nun üzvləri Vorontsov-Daşkovla görüşdükdən sonra Rusiyanın Türkiyə ilə müharibə aparacağı təqdirdə hər biri 400 nəfərdən ibarət dörd erməni könüllü dəstəsi hazırlamaq üçün razılıq almışdılar".(4.s.32)

Müsəlman türklərin kökünün kəsilməsini istəyən mənfi ünsürlər üçün təbii ki, bu öz bəhrəsini verdi. Belə ki, 1915-ci ildə Andronik Özanyan yenə də çar məmurlarından külli miqdarda silah-sursat, partlayıcı maddələr alaraq iyirmi beş min daşnak əsgərindən ibarət dəstə ilə Şərqi Anadolunun Sarıqamış, Qars, Ərdəhan, Ərzurum bölgələrində uşaqdan qocaya qədər 300 min silahsız müsəlman türkü, eyni zamanda Naxçıvanda və Qərbi Azərbaycanda 50 mindən çox soydaşımızı yırtıcı üsullarla qətlə yetirmişdi. Sarımış bölgəsindən əsir düşən 90 min insanın təxminən on minini Bakı yaxınlığındakı Nargin adasına gətirərək insanlığa sığmaz işgəncə verirdilər.

M.S.Ordubadi isə Qafqaz canişini Varantsov-Daşkovun müsəlmanlara qarşı qətliamlarda bilavasitə əli olduğu üçün etiraz səsini qaldırdığından 7 nəfərlə birlikdə Culfada həbsə alınmışdı və həbsə alınandan sonra bir müddət Naxçıvan həbsxanasında, sonra Tiflis zindanında saxlanmış, daha sonra Bakıya göndərilmişdi. Bakıda həbsdə olarkən ədib zaman-zaman həbsxana həyatını qələmə almışdı və bu yazılardan bir hissəsini qeyd eləmək ədibin həbsxana həyatını bir kino lenti kimi göz önünə gətirir. Bölüm belə adlanır:”Xatiratım (Memuar)"Qoçular mənə qəzet oxutdururdu"

“Axşam lampaları, su altında uyumuş sabah yeli şəhərin tərli çöhrəsinə işıq saçırkən biz Bakı bulvarının qarşısında idik. Yeni əkilmiş nazik ağacların titrək kölgəsində Bakı varlılarının qalın və nahamvar kölgələri bir-birinə toxunurdu.

Biz həbsxanaya yetişdikdə hava artıq tamamilə qaranlıqlamışdı. Bizi sayıb içəri buraxdılar. Mən salındığım odada bir yəhudi, bir də rus var idi. Bunlar rus-yəhudi ixtilafı haqqında danışırdılar. Söhbətləri qızışmışdı. Mən şeylərimi qoyub oturmuşdum. Qalxmağa, hətta yıxanmağa taqətim yox idi. Çox yorğun idim. Stansiyadan Bayıl həbsxanasına qədər ağır şeylərimi daşımağa məcbur olmuşduq. Araba verməmişdilər. Odanın döşəməsi taxta idi. Yer də quru idi. Odadakıların söhbəti daha da qızışdı. Bunlar yüz ildən bəri Çar Rusiyasında hökm sürmüş yəhudi məsələsini həbsxanada həll etməyə tələsirdilər. Onlar danışdıqca sözləri bir vuruşmaya qədər varıb çıxdıqda mənə müraciətlə: "Siz də doğrusunu deyiniz. Belə deyilmi?" - deyib soruşurdular. Mənim cavab verməyə vaxtım yox idi. Gözüm, qulağım onlarda olsa da, fikrim, düşüncəm tamamilə başqa tərəfdə idi.

Bu söhbətdə qapının bacasından uzun bir papağın içəri soxulduğunu gördüm. Papaq bütün bacanı qapadığından səs sahibinin üzünü görmək mümkün deyildi. Səslədi:

- Burada neçə müsəlman vardır?

Mən:

- Yalnız bircə nəfərdir, - deyə cavabını verdim. Papaq çəkildi. Odada söhbət edənlər yenə də sakit olmamışdılar. Az sonra həmin papaq sahibi əlində böyük bir podnos içəri girdi. Podnosu mənim yanımda yerə qoydu:

- Bunu sizin üçün Kəblə Ağakərim göndərdi, - dedikdə mən ona cavabla:

- Mənim hər bir şeyim vardır. Bu zəhmətə heç razı deyiləm, - dedim. Papaq sahibi qaş-qabağını turşudub mənə təəccüblə baxdı:

- Yox, elə etməyin. Qəbul etməsəniz Kəblə Ağakərim inciyər.

- Kəblə Ağakərim kimdir?

- Təəccübdür, bütün dünyada Qoçu Kəblə Ağakərim məşhur ola-ola, siz onu tanımırsınız?

Mən ona tanıdığımı söylədim. Çox razılıq etdim. O yenə də sözünə davam edərək:

- Kəblə Ağakərim buyurdu ki, yenə də hər nəyə ehtiyacı varsa, xəbər versin, - dedi.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 359-370*

- Bu qədər kifayətdir. Tək adamam. Çox zəhmət çəkib. Məndən ona salam söylə.

Papaq sahibi getdi. Çarçı qapını bağladı. Yəhudi ilə rus Ağakərim qoçu ilə Teymur bəyi bir-birinə tərif etdilər. Mən iki məşhur Bakı qoçusunun həbsxanada olduğunu anladım. Taleyimin təsadüf yaratdığından təəccübləndim. Məni istər Əhməd bəy Ağayev, istərsə Haşım bəy Vəzirov qəzetdə işləmək üçün bir neçə kərə Bakıya dəvət etmişdilər. Fəqət, mən qoçuların qorxusundan Bakıya gəlməmişdim. İndi isə bunlarla bir damın altında yaşayıram.(5)

Əslində M.S.Ordubadinin bu "Xatirat"ı Azərbaycan tarixi üçün çox gərəkli və dəyərli arxiv sənədidir. Çünki sovetlər dönəmində Bakı qoçularını vəhşi, qorxaq, təcavüzkar, acizin zalımı kimi elə qələmə vermişdirlər ki, hətta Azərbaycan müstəqil olandan sonra belə yazılarını ordan-burdan köçürən saxtakar "tarixçilər" gerçəyi, həqiqi tarixi öyrənib bilmədən şablon sözlərdən istifadə edərək Bakı qoçularının "mənfi" obrazını yaratmışlar. Ədibin bu "xatırat memuarı" isə Bakı qoçularını xarakterizə edən yuxarıda qeyd olunduğu kimi təkzibolunmaz bir materialdır. Məsələ burasındadır ki, 1905-1906-cı illərdə ermənilər milyonçu Lalayevin fitvası ilə Bakıda müsəlmanlara qarşı soyqırım apaparkən Qoçu Ağakərim bakılı igidlərdən dəstə toplayaraq savaşa girmiş və səkkiz ay müddətində erməni silahlı dəstələrini darmadağın etmiş, iri imarətinin zirzəmisində xeyli silah-sursat, partlayıcı maddələr, bombalar gizlətmiş Lalayevi isə öldürmüşdü. Teymur bəy isə Bakıda çox məşhur nəsil olan Aşurbəyovlardan idi və 1918-ci ildə neofaşist daşnak-bolşevik hərbi birləşmələri Stepan Şaumyanın başçılığı ilə Bakıda Azərbaycan xalqına qarşı dəhşətli qətliam törədəndə həm "İsmayıliyyə" binasında azərbaycanlı igidlərə dörd min dənə silah paylamış, həm də silaha sarılaraq Qoçu Nəcəfqulu, Qoçu Bilal, Mir İbrahim ağa, Dağlı Musa, Qoçu Əlizaman, Qoçu Qubad, Qoçu Bədəl, Qoçu Əbdüləziz, Qalalı Hacıbala və başqa Bakı qoçuları ilə birlikdə "Qafqaz İslam Ordusu" köməyə gələnə qədər ermənilərlə qəhrəmancasına savaşmış, yüzlərlə erməni dğasını məhv etmiş, Bakı və Bakı kəndlərinin böyük bir hissəsinə daşnak ayağının dəyməsinə imkan verməmişdilər.

M.S.Ordubadini Bakıda həbsdə saxlayandan sonra Rostov, oradan Novoçerkast, oradan da Saritsin həbxanasına gətirirlər.

Saritsin həbsxanasında əzablı, məşəqqətli günlər yaşayan ədib ağır halda xəstələnir. Lakin istedadı, bədii təfəkkürü bulaq kimi qaynayan təbi xəstə olduğu halda belə ədəbi yaradıcılığı haqqında düşünməyə başlayırdı. Doğmaları və dostları ilə məktublaşan Məmməd Səid onlardan cavab məktubu alınca ruhən yüngülləşir . Saristin həbsxanasında illərlə zillət çəkəndən sonra Məhəmməd Hüseyn Hacıyevdən məktub alır. Bu məktuba cavab olaraq 1915-ci ilin dekabrında Hacıyevə həbsxanada qələmə aldığı şeiri göndərir:

Məktubunu aldım əya, piri xürəndmənd,
Sürtdüm gözümə, ağladım, ey munisi-dilbənd.
Bir qəryə ki ordan çox uzaq kəlmeyi-ürfan,
Əfsus ki, bir öylə yer olmuş sənə zindan.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 359-370*

Madam yenə zira ki, səlamətdi məcazın,
Qal, qalmalısan, yox buna bir başqa əlacın.
Dövran səni də, bizləri də qıldı fəramüş,
Bir guşədəyiz ki, yaşarız böyləcə xamuş.
Əfsus ki, haram oldu mənə feyzi-huzurun,
Heyhat olamam bir də sənin məzhəri-nurun.
Etdikcə biz eyb əhlini hər ləhzədə təyib,
Məyublar axırda bizi eylədi təyib.
Biz istər ikən fikirdə, məsləkdə təcəlla,
Əfsus ki, olmuş təcəlla bizə mənza.
Övzahi pərtişanımı təsvir edəməm mən,
Qorxum budur Rusiya kəsilsin mənə mədfən.(6.s.258)

M.S.Ordubadi çox sevdiyi Raya adlı rus qızının ölüm xəbərini alandan sonra yatağa düşmüşdü və Rayanın ölümü ona elə təsir etmişdi ki, aylarla yataqdan qalxa bilməmişdi. Rayanı heç bir səbəb olmadan, daha doğrusu evində qulluqçuluq etdiyi çar məmuru polkovnik Ştrauberin iyrənc təkliflərinə yox cavabı verdiyinə görə həbsxanaya salıb o qədər işgəncə vermişdilər ki, havalanmış və ruhi xəstəxanada "qarabasmalar" ruhuna o qədər əziyyət vermişdilər ki, nəhayət bağrı çatlayıb ölmüşdü. Vaxtilə zorakılıqla fahişəxanaya verilmiş bakirə Rayanı başqa bir rus qızı Lida ilə birlikdə 200 manat pul verərək ordan xilas edən Məmməd Səidin Rayaya olan duyğuları şəhvət yox, iffətlə bağlı idi. Rayanı və Lida adlı rus qızını ataları pulla sutinyorlara satmışdılar. O, bu günahsız, pak qızı sadəcə bir arxadaş, dost kimi sevirdi. Zatən əxlaqı gözəl olan və əsərlərində də oxucularına gözəl əxlaqlı olmağı tövsiyə edən ədibi günahsız Rayanın vahimələr, vəsvəsələr içərisində ölməsi o qədər pərişan etmişdi ki, 1916-cı ilin yarısına qədər yataqdan qalxa bilməmişdi. Rayanın faicəli ölümü ədibə Naxçıvan həbsxanasında şahidi olduğu Məlaknisənin ölümünü xatırladırdı. Naxçıvan həbsxanasında gecələr qadın məhbusları yüksək rütbəli çar məmurları üçün gətirirlərmiş. Məlaknisə hər gecə başqa-başqa məmurlar tərəfindən zorlanırmış. Məmməd Səid buna mane olmağa alışsa da, özü də məhbus olduğu üçün əlindən bir şey gəlmirmiş. Nəhayət bədbəxt Məlaknisə bu cür iyrənc zorakılıqlara dözə bilməyib intihar edir. Ədib yazır:

"Onun hər bir yerişi nə qədər təhqir edildiyini, vəhşi qucaqlardan yorulduğunu göstərirdi".(7.s.10)

Rayanın ölümü ilə bağlı aylarla xəstə yatan Məmməd Səid yaxın dostları Əliabbas Müznibdən, Cəfər Bünyadzadədən, Əzim Əzimzadədən müntəzəm olaraq məktublar alır, eyni zamanda mühərrirlik fəaliyyətini davam etdirərək "Babayi-Əmir", "Tuti" adlı satirik jurnallarda satirik şeirlərlə iştirak edir, lakin yazdıqlarına görə para ala bilmirdi.

Həm Naxçıvan, həm Tiflis həbsxanalarında iyrənciliklər görən ədib Naxçıvan həbsxanasında qadın dustaqlara işgəncə verildiyini, Tiflis həbsxanasında

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 9, 2024
Səh. 359-370
pozğunluqlarını, Saristin şəhərində isə Cənubdan gələn bəzi müsəlmanların xristian dinini qəbul edib mexaniki olaraq ruslaşdıqlarının şahidi olmuşdu. Bütün bunlar onun ürəyini ağrıdır, ovqatını təlx edirdi. Bununla bağlı ədib xatirələrində yazırdı:

"Saristində rus dinini qəbul edən bir çox iranlılara təsadüf etdim. Bunlardan ən məşhuru ərdəbilli Abdin kişi idi. Abdin kişi Saristin ikə Kamışlı arasında "Dubovka" adlı kiçik bir şəhərdə rus dinini qəbul etmişdi. Adı Mixail idi. Volqa ruslarının arasında çox hörməti var idi. Böyük xaçını həmişə üstdən salardı. Bu da yerli ruslar arasında adət idi. Abdin kişinin əvvəlki qadını Ərdəbildə qalmışdı. Onun Həsənqulu adlı oğlu dalınca gəlmişdi. Gələn kimi adını Semyon Mixayloviç qoyub rus olmuşdu. Nə özü, nə atası müsəlmanlara yaxın gəlməzdi. Bir neçə kərə Ərdəbil müsəlmanları onu döymüşdülər. Bunun üstündə yerli hökumət bir neçə müsəlmanı həbs eləmişdi.

Abdin kişi zatən çox şərarət bir adam idi. Dəfələrlə "müsəlmanlar məni, xaçımı söydü" –deyə hökumətə şikayət etmişdi. Onun "Dubovka"da evləndiyi və bundan ötrü rus dinini qəbul etdiyi qadından da bir oğlu olmuşdu. Adı İvan idi. Nədənsə bu oğlan yaşa dolanda atasından ayrılıb müsəlmanlara qoşulmuşdu. Son vaxtlar isə adını dəyişib Əli qoymuşdu. Pasportu İran pasportu idi". (3.s.64)

Həbsxanadan buraxılandan sonra ədib siyasi şöbədə işləmək üçün Həştərxana dəvət alır. Burada o, "Hümmət" qəzetində məsul müdir təyin olunur. Bir müddət sonra 11-cı Qırmızı Ordu Dağıstanı işğal edəndən sonra Dağıstana gəlir və Teymurxanşurada "Qırmızı Dağıstan" adlı qəzet nəşr etməyə başlayır və yalnız 1920-ci ildə 11-ci Qırmızı Ordu Bakını işğal eləyəndən sonra Bakıya qayıdır.

Təbii ki, M.S.Ordubadi bolşeviklərin yağlı vədlərinə inanıb –onlarla əməkdaşlıq edirdi və şübhə yox ki, zaman keçdikdən sonra onların iç üzünü görüb peşman olmuşdu. Onların heç də sinfi mübarizə apardığının deyil, şovinizmi, irqi ayrı-seçkiyliyi görüb pərişan olmuşdu. Lakin artıq gec idi, o, etiraz səsini heç cürə açıq-aşkar qaldıra bilməzdi. Əks təqdirdə tək özünü deyil, bütün ailəsini məhv edərdilər. Lakin ədibin məhbəs həyatı əslində yuxarıda qeyd olunduğu kimi təkzibolunmaz bir arxiv sənədidir ki, bu tarixi gerçəkləri sadə və aydın şəkildə oxuculara anladır.

**Nəticə:** XX əsrin əvvəllərinin ədəbiyyatı xalqın milli özünüdərki və müstəqilliyi uğrunda mübarizənin ədəbiyyatı olmuşdur. Bu həm də Azərbaycanda H.B.Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti, eyni zamanda rus dilində olsa da bir sıra qəzet-jurnalların buraxılması, mədəni tərəqqiyə, milli özünüdərki yollar açmış, bir tərəfdə "Qori Müəllimlər Seminariyası"nda Bakı milyonçusu Seyid Mirbabayevin vəsaiti ilə müsəlman yeniyetmələri üçün ayrıca şöbə açılmış, başqa bir tərəfdən başda Hacı Zeynalabdin Tağıyev olmaqla müsəlman gənclərinin Avropaya, Peterburqa təhsil arxasınca göndərilməsi Azərbaycanda müəllimlərin və qabaqcıl, mütərəqqi ziyalıların artmasına səbəb olmuş və artıq XIX əsrin axırından etibarən elmi tərəqqi, eyni zamanda elmi nailiyyətlər güclü bir sıçrayışla Qafqazın başqa ölkələrininin elmi tərəqqisini geridə qoymağa başlamışdı. XX əsrin əvvəllərində isə

artıq 1906-cı ildən etibarən Azərbaycan dilində nəşr edilən qəzet-jurnallar isə bu tərəqqiyə daha da güclü təkan vermiş və Azərbaycanı Avropa ölkələrinin srasına daxil etmişdi. Lakin məlum olduğu kimi, inqilablar, münaqişələr, dünya miqyasında siyasi və ideoloji sistemlərin mübarizəsi qarşıdurması və nəhayət 11-ci Qızıl Ordu Azərbaycanı işğal eləyəndən sonra qəddar bir rejimin zəhərli qılıncı ilə xalqın milli və dini dəyərlərinin təhqir olunması ilə özünü göstərməyə başladı. Bu isə tarix boyu süzgəclərdən keçmiş, aşılana-aşılana XX əsrin 1920-ci ilinə qədər mərhələ-mərhələ daha da zənginləşmiş Azərbaycan ədəbiyyatını qəddar rejimin təzyiqi altında yalnız sosializm ideologiyasını tərənnüm edən ədəbiyyata çevirdi.

## ƏDƏBİYYAT

1.https://www.facebook.com/www.com.ordubadim/posts/3900255150069356/?locale=fi_FI&_r
2. Məmməd Səid Ordubadi "Qanlı sənələr" (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi) Bakı-1991. 141 səh
3. Yavuz Axundlu "Məmməd Səid Ordubadi" "Elm və Təhsil" 2012. 384 səh.
4. Vüqar Arzumanlı, Nazim Mustafa Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: 1998."Qartal" nəşriyyatı,280səh.
5. Sherg.az https://sherg.az › arxiv
6. Fəridə Vəzirova. "Məmməd Səid Ordubadi" Bakı-"Gənclik"-1970. səh 258
7. Məmməd Səid Ordubadi Həyatım və mühitim, "Xan" Xatirə ədəbiyyatı silsiləsindən 7-ci kitab. Tərtib edən: Dilqəm Əhməd II nəşr "Xan" nəşriyyatı Bakı-2016. 232 səh.

**Rəyçi: filologiya elmləri doktoru, professor Vüqar Əhməd**